# Azərbaycan Dövlət Filarmoniyası-75

Azərbaycan Dövlət Filarmoniyasının binası 1910-1912-ci illərdə "İctimai toplantıların yay binası" layihəsi kimi inşa edilmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci ildə pərakəndə fəaliyyət göstərən ansambllar, orkestrlər və musiqi həvəskarları bu binada fəaliyyət göstərməyə başlamışdır.



1936-cı il mayın 25-də SSRİ-nin (MDB) başqa respublikalarında olduğu kimi Azərbaycanda da filarmoniya yaranmışdı. 1937-ci il avqust ayının 11-də isə Xalq Komissarları Sovetinin 5921 saylı iclasının qərarı ilə AK (b) MK-dan xahiş edildi ki, əməkdar incəsənət xadimi Müslüm Maqomayevin adını əbədiləşdirmək məqsədilə Azərbaycan Dövlət Filarmoniyasına bəstəkarın adı verilsin.

Elə həmin ildən Azərbaycan Dövlət Filarmoniyası respublikamızın mədəni həyatında əvəzedilməz rol oynamağa başlamışdır. Filarmoniya milli və klassik musiqiçilərin təkrarsız təbliğat ocağıdır.

Bu möhtəşəm konsert təşkilatında 7 kollektiv fəaliyyət göstərir. Bunlar Azərbaycan Respublikasının xalq artisti, Dövlət Mükafatı laureatı, professor Rauf Abdullayevin rəhbərliyi ilə Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Gülbacı İmanovanın rəhbərliyi ilə Azərbaycan Dövlət Xor Kapellası, əməkdar incəsənət xadimi Teymur Göyçayevin rəhbərliyi ilə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Azərbaycan Dövlət Fortepiano Triosu, Azərbaycan Dövlət Simli Kvarteti, F.Əmirov adına əməkdar kollektiv, Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblı, bu kollektivin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Xalq Çalğı Alətləri orkestridir.

Ulu öndər Heydər Əliyevin şəxsi səyi və istəyi nəticəsində 8 aylıq təmirdən sonra Dövlət Filarmoniyası 27 yanvar 2004-cü ildə təntənəli surətdə tamaşaçılara təhvil verilmişdir. Açılışda Prezident İlham Əliyev, dünya şöhrətli violençel ustası Mstislav Rastropoviç və başqaları iştirak etmişdilər.

Son illər Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi filarmoniyanın müxtəlif kollektivləri ilə çıxış edən xarici artistləri Respublikamıza dəvət edir. Bu siyahıda V.V.Andreyev adına Dövlət Akademik Rus Orkestrinin bədii rəhbəri və baş dirijoru Dmitri Xoxlov, Norveç Opera və Balet Teatrının solisti İngeborq Kosmo, Böyük Britaniya pianoçusu Deniel Qrimvud, Ukrayna Respublikasının xalq artisti Tatyana Pimenova və digərlərinin adı var.

**Bundan əlavə fransız pianoçusu Fransua Saplen, pianoçuların Beynəlxalq müsabiqələr laureatı Denis Matsuyev (Moskva), Moskva solistləri orkestrinin baş dirijoru və solisti Yuriy Basmetin filarmoniyada çıxışları planlaşdırılır.**

**• A. ABDULLAYEVA**